1_Layout 1 27.08.2025 15:50 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 16 (704)

29 avqust 2025-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# AZƏRBAYCAN-ÖZBƏKİSTAN-TÜRKMƏNİSTAN ENERJİ ƏMƏKDAŞLIĞI UĞURLU OLACAQ

## Bunun üçün imkan da, zəmin də, istək də var

**"Azərbaycan" qəzetinin müxbiri Flora Sadıqlının müəllifi olduğu "Azərbaycan-Özbəkistan-Türkmənistan enerji əməkdaşlığı uğurlu olacaq" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**

Azərbaycan, Özbəkistan və Türkmənistan energetika sahəsində üçtərəfli əməkdaşlıq etmək üçün geniş perspektivlərə malikdirlər. Əvvəla, hər üç ölkənin təbii sərvətləri buna imkan verir. İkincisi isə Türkmənistanla ənənəvi energetika əməkdaşlığımızın olması, son dövrlər Özbəkistanla bu sahədə yaranan sıx əlaqələr gələcək uğurlar üçün möhkəm zəmin yaradır.

Prezident İlham Əliyev avqustun 22-də Türkmənbaşı şəhərində Türkmənistan, Azərbaycan və Özbəkistan arasında yüksəksəviyyəli görüş zamanı bu məsələni də vurğulayıb. Belə ki, Özbəkistanla ikitərəfli əməkdaşlığın ən perspektivli sahələrindən biri məhz enerji sektorudur. SOCAR və "Uzbekneftegaz" ASC Azərbaycanda və Özbəkistanda neft yataqlarının birgə işlənməsi, neft-qaz sektorunda layihələrin həyata keçirilməsi və digər sahələrdə əməkdaşlıq edirlər. Bu istiqamətdə bir sıra sənədlər imzalanıb.

Dövlətimizin başçısı Türkmənbaşı şəhərində bununla bağlı bildirmişdir: "Bizim dövlət neft şirkətimiz SOCAR artıq Özbəkistanda neft yatağının işlənilməsinə də başlayıb, kontrakt imzalanıb. Ümid edirik ki, yaxın bir-iki il ərzində bizə gözəl xəbərlər verəcəklər. Özbəkistanda böyük neft yatağının kəşf edilməsi xəbərini biz hamımız səbirsizliklə gözləyirik".




Azərbaycan-Özbəkistan "yaşıl enerji" əməkdaşlığı da genişlənir. Keçən ilin noyabr ayında, COP29-un davam etdiyi günlərdə Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında üç dövlət başçısı tərəfindən "yaşıl enerji"nin istehsalı və tranziti ilə bağlı mühüm sənəd imzalanıb.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev imzalama zamanı sözügedən layihə haqqında belə demişdir: "Ölkələrimiz əhəmiyyətli dərəcədə bərpaolunan enerji resurslarına malikdir və qlobal enerji keçidinə mühüm töhfə verə bilər. Özbəkistanda bu istiqamətdə genişmiqyaslı işlər aparılır, "yaşıl enerji"nin inkişafı üçün böyük proqram qəbul edilib. Biz 2030-cu ilədək bərpaolunan enerji mənbələrinin payını 40 faizə çatdırmağı, həmçinin 4,2 giqavatlıq enerjisaxlama sistemləri yaratmağı planlaşdırırıq. Bundan başqa, ilin sonunadək biz əlavə olaraq 2,6 giqavat bərpaolunan enerji və 300 meqavat enerjisaxlama sistemlərini şəbəkəyə birləşdirəcəyik. Hər il təxminən 2 giqavat günəş və külək enerjisi istehsal etmək gücünü işə salırıq".

Xəzər dənizindəki "Dostluq" yatağını isə Azərbaycanla Türkmənistan birgə işləyəcəklər. Bu yatağın karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması iki ölkənin hökumətləri arasında 2021-ci il yanvarın 21-də Aşqabad şəhərində olub. Həmin il fevralın 25-də Prezident İlham Əliyev Anlaşma Memorandumunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanununu imzalayıb.

Ümumiyyətlə, son illər ərzində Azərbaycan və Türkmənistan arasında münasibətlər müsbət dinamika ilə inkişaf edir. Ali səviyyədə qarşılıqlı səfərlərin xronologiyası da bunu təsdiqləyir. "Dostluq" yatağının işlənməsi barədə ümumi qərar da bu münasibətlərdən qaynaqlanır. Mütəxəssislər yataqda təqribən 50 milyon tondan çox çıxarıla bilən neft və 30 milyard kubmetrdən çox təbii qaz ehtiyatının olduğunu proqnozlaşdırırlar.

Azərbaycan və Türkmənistan tərəflərinin bu yatağı "Dostluq" adlandırmaq barədə ümumi qərarı da dərin rəmzi məna daşıyır. Çünki Anlaşma Memorandumunun imzalanması iki ölkənin energetika sahəsində prinsipcə yeni mərhələnin, möhkəm beynəlxalq hüquqi bazaya əsaslanan birgə işin başlanğıcını qoydu ki, bunlar da regiona sistemli və uzunmüddətli əsasda iri xarici investisiyalar axını üçün əlavə ciddi stimullar yaradır. Həm Azərbaycanın, həm də Türkmənistanın milli iqtisadiyyatının dinamik inkişafına, yeni iş yerlərinin yaradılmasına, insanların həyat səviyyəsinin yüksəldilməsinə yeni təkan verilir.

Azərbaycan, Özbəkistan və Türkmənistan arasında enerji əlaqələri möhkəm əməkdaşlığa əsaslandıqca isə nəticələr daha ürəkaçan olacaq. Türkmənbaşıda üç ölkənin prezidentləri məhz bu məsələ üzərində də dayanıblar. Şərhə ehtiyac olmadığına əminliklə onların hər birinin mətbuata verdikləri bəyanatlardan kiçik bir parçanı misal gətiririk.

Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov bəyanatında demişdir: "Ölkələrimizin iqtisadi əməkdaşlıq baxımından potensialını nəzərdən keçirdik ki, bu da təkcə bizim deyil, bütün Avrasiya regionunun inkişafına töhfə verir. Bu qarşılıqlı fəaliyyət bizə bütün regionumuz daxilində geoiqtisadi əməkdaşlığı gücləndirməyə imkan verəcək. Bunu təsdiqləyən çoxlu misallar var. Elektrik enerjisi sahəsində əməkdaşlığı qeyd etmək kifayətdir, burada bizim faydalı əlaqələrimiz var.

Biz qaz sahəsində strateji tərəfdaşlığın dərinləşdirilməsinin mühüm məsələlərini, eləcə də perspektivləri müzakirə etdik və əməkdaşlığı gücləndirməyə hazır olduğumuz barədə razılığa gəldik".

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin bəyanatından: "Üç ölkənin energetika sahəsində əməkdaşlıq perspektivlərini nəzərdən keçirdik. Söhbət karbohidrogen yataqlarının işlənməsi və hasil olunan elektrik enerjisinin ixracı üzrə perspektiv layihələrdən gedir".

Azərbaycan Prezidenti İlham Əliyev söylənilən fikirləri ümumiləşdirərək bəyan etmişdir: "Müzakirə olunan məsələlər burada artıq qeyd olundu, onları təkrar etmək istəmirəm. Amma bir şeyi deyə bilərəm, artıq müvafiq dövlət qurumlarına göstərişlər verildi ki, üçtərəfli əməkdaşlıq formatı yaradılsın və bizim növbəti görüşümüzə konkret istiqamətlər üzrə təkliflər verilsin. Bütün göstərişlər verildi. Yenə də deyirəm, burada səslənmişdi - nəqliyyat, tranzit, logistika, elektroenergetika, neft, qaz sahələri və mədəni əlaqələr. Qaldı ki, bütün bu göstərişlərin vaxtında yerinə yetirilməsinə, mənim buna da şübhəm yoxdur".

# KƏLBƏCƏRƏ HƏYAT QAYIDIR

**Ölkəmizin hər guşəsi tariximizin ayrılmaz bir hissəsidir. Əcdadlarımızın müqəddəs tutduğu bu yerlər bizlərə əmanətdir. Odur ki, Vətən torpaqlarını göz bəbəyi kimi qoruyub gələcək nəsillərə ərməğan etmək mənəvi borcumuzdur.**

### "Əziz kəlbəcərlilər, Kəlbəcərə xoş gəlmisiniz!"

Azərbaycan əsrlər boyu çox ağır sınaqlardan keçib. 1980-ci illərin sonu, 1990-cı illərin əvvəlində qədim məmləkətimizin başının üstünü yenə qara buludlar aldı. Çox da uzaq olmayan keçmişdə ölkəmizin bir sıra ərazilərində soydaşlarımız ermənilərə qapı açmış, yaşamaq üçün yurdunda sığınacaq vermişdi. Etdikləri yaxşılıqların müqabilində isə bu məkrlilərdən dönə-dönə yamanlıq görmüş, başları bəlalar çəkmişdi. Özlərinə yer edən ermənilər əllərinə hər fürsət düşəndə yerli əhaliyə qənim kəsilirdilər. Onlar XX əsrin sonlarında - sovet imperiyasının çökməyə başladığı illərdə yaranan qarışıqlıqdan da yararlanmağa çalışırdılar. Himayədarlarından aldıqları silahlarla, hərbi texnikalarla güclənmiş, azğınlaşmış erməni quldurları o zaman ov tüfəngləri belə əllərindən alınmış azərbaycanlıların üzərinə hücuma keçdilər. Körpələrimizə, qocalarımıza, qadınlarımıza, əlillərimizə belə aman vermədilər. Xalqımıza qarşı dəhşətli qırğınlar, qətliamlar, soyqırımları törətdilər. Torpaqlarımızın 20 faizini işğal etdilər. 1 milyon soydaşımızı yurdundan, isti ocağından qovdular. Ələ keçirdikləri Qarabağ və Şərqi Zəngəzur torpaqlarında



dağıtdıqları yaşayış yerlərimizi Birinci Qarabağ müharibəsindən sonra nəinki bərpa etməyi düşünmədilər, əksinə, talançılıqlarını davam etdirdilər. Qarabağın, Şərqi Zəngəzurun kəndlərini, rayonlarını, şəhərlərini xarabalığa çevirdilər. Səbəbi bəlli idi. Yalanlarına özlərini belə inandıra bilməmişdilər. Bu yerlərə yad olduqlarını anlamaq istəməmişlər.

Ermənistan silahlı qüvvələrinin əsarəti altında qalan həmin torpaqların əsl sahibləri - azərbaycanlılar isə Qarabağın, Şərqi Zəngəzurun xiffətini çəkir, bu ayrılığın bir gün bitəcəyini ümidlə gözləyirdilər.

İndi ümidlərin doğrulduğu, qəsbkar ermənilərdən xilas etdiyimiz Qarabağda, Şərqi Zəngəzurda dövlətimizin "Böyük qayıdış" proqramı çərçivəsində həyata keçirdiyi əzəmətli işlərin, möhtəşəm tədbirlərin şahidi olduğumuz, keçmiş məcburi köçkünlərin mərhələli şəkildə öz yurdlarına döndüklərini gördükcə sevincimizin aşıb-daşdığı bir vaxtdayıq. Keçmişi unutmuruq. Bugünkü uğurlarımızla qürur duyuruq. Gələcəyimizə ümidlə baxırıq.

Bu duyğuların içərisində növbəti sevincli xəbəri dağlar qoynunda yerləşən Kəlbəcərdən aldıq. Uzunmüddətli ayrılıqdan sonra kəlbəcərlilər də öz yurdlarına qayıdırlar. "Böyük qayıdış" proqramı çərçivəsində artıq burada da ilk yaşayış kompleksi istifadəyə verildi, lazımi infrastruktur quruldu. Dövlətimizin başçısı İlham Əliyev avqustun 21-də Kəlbəcərə səfəri zamanı buraya köçmüş 20 ailəyə mənzillərin açarlarını təqdim etdi. Həmin ailələr Kəlbəcər şəhərinin 1-ci yaşayış kompleksində məskunlaşdılar. Burada yaxın illərdə dörd yaşayış massivində 10 min nəfərin məskunlaşması nəzərdə tutulub.

Həmin gün dövlətimizin başçısı yurdlarına dönüşün sevinci içərisində olan kəlbəcərlilərə: "Əziz kəlbəcərlilər, Kəlbəcərə xoş gəlmisiniz!", - dedi. Prezident İlham Əliyev bildirdi ki, bu gün sizin həyatınızda tarixi bir gündür: "Doğma Vətənə, doğma şəhərə 32 ildən sonra qayıdırsınız və bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Biz ədaləti bərpa etdik, haqqımızı bərpa etdik və bugünkü tədbir bir daha onu göstərir ki, Azərbaycan xalqı iradəli xalqdır. Azərbaycan xalqı öz doğma torpağına bağlıdır və bütün çətinliklərə baxmayaraq, işğal dövründə biz nəinki inamımızı itirməmişik, hər birimiz - bütün xalq hər gün bu müqəddəs günü yaxınlaşdırırdı".

### Bir güllə belə atılmadan azad edilən Kəlbəcər...

Ölkəmizin coğrafi baxımdan ən mürəkkəb relyefə malik bölgələrindən biri olan Kəlbəcər rayonu sıldırım dağları, keçilməz dərələri, əlçatmaz yüksəklikləri və ərazisinin böyüklüyü ilə seçilir. Bu ərazi hərbi əməliyyatların aparılması baxımından olduqca çətin və təhlükəli olduğu üçün Kəlbəcərin hərbi yolla azad edilməsi çoxsaylı canlı qüvvə itkisi ilə müşayiət oluna bilərdi. Dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin uzaqgörən siyasəti, müdrik diplomatiyası, sərkərdəlik məharəti nəticəsində Kəlbəcər rayonu, eləcə də Laçın və Ağdam rayonları bir güllə belə atılmadan, dinc yolla Azərbaycana qaytarıldı. Bu hadisə dövlətimizin siyasi və diplomatik qələbəsinin, Prezident İlham Əliyevin qətiyyətinin, xalqımızın birliyinin bariz nümunəsi oldu.

Dövlətimizin başçısı kəlbəcərlilərlə görüşdə şanlı tariximizə çevrilmiş 2020-ci ildə baş verən Vətən müharibəsini, xalqımızın böyük Zəfərini xatırlatdı. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan dövləti və Azərbaycan xalqı bir yumruq kimi birləşdi və biz Ermənistanı cəmi 44 gün ərzində kapitulyasiya aktını imzalamağa məcbur etdik.

**"Azərbaycan" qəzetinin materialları əsasında hazırlanıb.**

2_Layout 1 27.08.2025 15:52 Page 1



# 80 YAŞLI VETERANLA YUBİLEY GÖRÜŞÜ




Avqustun 15-də Daxili Qoşunların sıralarında uzun illər ləyaqətlə xidmət etmiş, komandan müavini vəzifəsinədək yüksəlmiş, müharibə və Silahlı Qüvvələr veteranı, istefada olan polkovnik Məhəmməd Mirzəyevin 80 yaşı tamam olub. Həmin gün daxili qoşunlar komandanının müavini-şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov Daxili Qoşunların Baş İdarəsində veteranla görüşərək onu 80 illik yubileyi münasibətilə komandanlıq adından təbrik edib. Qeyd olunub ki, M.Mirzəyevin həyatının böyük bir hissəsi Daxili Qoşunlarla bağlıdır, o, həm sovet dövründə, həm də müstəqillik illərində təqdirəlayiq xidmət yolu keçərək zəngin təcrübə toplayıb, vətənpərvər və peşəkar zabit kimi dövlətimiz qarşısında öz borcunu vicdanla yerinə yetirib. Azərbaycan Respublikasının Prezidenti tərəfindən M.Mirzəyev “Azərbaycan Bayrağı” ordeninə layiq görülüb. Hərbi xidməti dövründə daxili işlər nazirinin və daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq əmrləri ilə dəfələrlə mükafatlandırılıb.

Xüsusi vurğulanıb ki, M.Mirzəyev Daxili Qoşunların maddi-texniki bazasının yaradılması, inkişaf etdirilməsi, bu sahədə kadrların yetişdirilməsi, habelə hərbi hissələrdə mövcud infrastrukturun yenilənməsində öz bilik və bacarıqlarını əsirgəməyib.

General-mayor İ.Muradov M.Mirzəyevin silahdaşlarının dərin hörmətini qazandığını bildirərək, bu yubiley günündə onların diqqət və qayğısı ilə əhatə olunduğunu nəzərə çatdırıb.

M.Mirzəyev bu görüşdən məmnun olduğunu söyləyərək, səmimi təbrikə, şəxsinə göstərilən hörmətə görə Daxili Qoşunlar komandanlığına öz minnətdarlığını ifadə edib.

Sonda veterana yubiley hədiyyəsi və təbriknamə təqdim olunub, xatirə şəkli çəkdirilib.

Görüşdə Daxili Qoşunların Veteranlar şurasının sədri istefada olan general-mayor Şirin Xəlilov və digər veteranlar iştirak ediblər.

**Yalçın Abbasov**

# “TƏLƏBLƏRƏ RİAYƏT OLUNMASI TABORDA YÜKSƏK İNTİZAMIN YARANMASINI ŞƏRTLƏNDİRİR”



Bu gün istər paytaxt Bakıda, istərsə də regionlarda ictimai qaydanın qorunub saxlanılması və ictimai təhlükəsizliyin təmin edilməsində Daxili Qoşunların xüsusi rolu var. Bu baxımdan 17072 saylı hərbi hissənin ayrı yerləşən patrul taboru yüksək döyüş hazırlığı, o cümlədən nümunəvi hərbi intizam nümayiş etdirərək, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir. Bütün bunlar şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı barədə müsbət təsəvvür yaradır.

Ayrı yerləşən patrul taborunun komandirinin müavini-qərargah rəisi mayor Namir Qurbanov əldə olunan nailiyyətlərin, ilk növbədə, hərbi qulluqçuların öz vəzifə borclarına məsuliyyətlə yanaşmalarından irəli gəldiyini bildirdi. Döyüş hazırlığının yüksək səviyyədə qorunub saxlanılması istiqamətində görülən işlər barədə məlumat verən zabit söylədi ki, hərbi qulluqçuların fiziki hazırlıqları diqqət mərkəzində saxlanılır. Bütün idman tədbirləri vaxtında, müvafiq təlimata uyğun keçirilir, bu da müsbət nəticələrin əldə olunmasına imkan verir.



Mayor N.Qurbanov şəxsi heyətin atəş hazırlığının da mühüm əhəmiyyət kəsb etdiyini nəzərimizə çatdırdı. Habelə şəxsi heyət arasında nizam-intizamı möhkəmləndirmək, gündəlik fəaliyyətdə qanunçuluğa riayət olunmasını, təhlükəsizlik qaydalarına əməl edilməsini tələb etmək də xidmətin əsasıdır.

O, görülən işlərdə ayrı yerləşən patrul taboru komandirinin maddi-texniki təminat üzrə müavini mayor Rəşad Zahidov, xüsusi vasitələrin tətbiqi bölməsinin komandiri kapitan Cavad Qənbərov və digər hərbi qulluqçuların xidmətlərini müsbət qiymətləndirdi. Mayor N.Qurbanovun sözlərinə görə, bölmə komandirləri məşğələlərin tam və keyfiyyətlə keçirilməsi məqsədilə tədris prosesini hər zaman ciddi nəzarətdə saxlayırlar.



Taborun komandanlığı tərəfindən diqqət mərkəzində saxlanılan istiqamətlərdən biri də bölmələrin təyinatları üzrə vəzifələrini yerinə yetirmələri, o cümlədən şəxsi heyətin gündəlik xidməti-döyüş fəaliyyətidir.

Komandir müavini əlavə etdi ki, şəxsi heyətin Daxili Xidmət Nizamnaməsində nəzərdə tutulmuş qaydalara ciddi riayət etməsi taborda yüksək intizamın, sağlam mənəvi mühitin yaranmasını şərtləndirir. Belə bir mühitdə sözsüz ki, sağlam düşüncəli, hərtərəfli hazırlığa malik hərbi qulluqçular formalaşır.

Müasir avadanlıqlarla təchiz olunmuş tibb məntəqəsi, yeməkxana və parkda da xidmətin təşkili qənaətbəxşdir.



Ümumilikdə şəxsi heyət qarşıya qoyulan tapşırıqların icrası zamanı əzmkarlıq nümayiş etdirir, funksional vəzifələrini layiqincə yerinə yetirir.

**kapitan Xədicə Hacızadə**

# TAPŞIRIQLARI KEYFİYYƏTLƏ YERİNƏ YETİRMƏK BACARIĞI

16077 saylı hərbi hissənin minaatan batareyası xidməti-döyüş fəaliyyətini uğurla həyata keçirir. Batareyanın şəxsi heyəti yüksək döyüş hazırlığı, intizamı və nümunəvi xidmətilə seçilir. Peşə vərdişlərinin təkmilləşdirilməsi məqsədilə şəxsi heyət mütəmadi olaraq məşğələlərə cəlb olunur. Məhz bunun nəticəsidir ki, batareya qarşıya qoyulan vacib, eyni zamanda məsuliyyətli tapşırıqların öhdəsindən layiqincə gəlmək bacarığına malikdir. Bu işdə batareya komandiri kapitan Cəmşid Əsədovun zəhməti danılmazdır.



Minaatan batareyanın vəzifələri barədə danışan kapitan C.Əsədov bildirdi ki, əsas tapşırıqlar döyüş əməliyyatları zamanı düşmən



üzərinə asanlıqla irəliləmək üçün xüsusi təyinatlı bölmələri atəş dəstəyi ilə təmin etməkdən ibarətdir.

Batareya komandiri söylədi ki, qarşıya qoyulmuş döyüş tapşırığının müvəffəqiyyətlə yerinə yetirilməsi hər bir hərbi qulluqçudan böyük məsuliyyət tələb edir: “Məsələn, düşmənin qüvvəsini görmədən vurmaq tapşırığını yerinə yetirərkən riyazi hesablamalar əsas götürülür. Lakin məlumatlar dəqiq və düzgün çatdırılmalıdır”.

Zabitimiz hərbi qulluqçuların peşə hazırlıqlarının artırılması məqsədilə görülən işlərdən də danışdı. O, şəxsi heyətin mütəmadi olaraq praktiki məşğələlərə cəlb olunduğunu dedi: “Hərbi qulluqçularla ixtisas hazırlığı məşğələsində “batareya hücumda” və “batareya müdafiədə” mövzularında təlimlər keçirilir, həmçinin minaatanın təyinatı, taktiki-texniki xüsusiyyətləri, iş prinsipləri, o cümlədən təhlükəsizlik qaydaları öyrədilir”.

Kapitan C.Əsədov funksional vəzifələrinin öhdəsindən layiqincə gələn hərbi qulluqçulardan əsgərlər Ruslan Kərimovun, Əşrəf Nuriyevin, Abdulcəmil Xəlillinin adlarını çəkərək, əlavə etdi ki, batareya yüksək döyüş hazırlığına malikdir və istənilən zaman qarşısına qoyulan tapşırıqların icrasına hazırdır.

**kapitan Şahin Cəfərzadə**

# XÜSUSİ VASİTƏLƏRİN TƏTBİQİ BÖLMƏSİ FƏALİYYƏTİ İLƏ ÖNDƏDİR




16073 saylı hərbi hissənin yüksək döyüş hazırlığı ilə fərqlənən bölmələrindən biri xüsusi vasitələrin tətbiqi dəstəsidir.

Dəstənin fəaliyyəti və şəxsi heyəti barədə məlumat almaq üçün dəstə komandiri polkovnik-leytenant Rasim Əliyevlə həmsöhbət olduq. Hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan zabitimiz döyüş hazırlığının yüksəldilməsi, hərbi qulluqçuların mənəvi-psixoloji durumlarının qənaətbəxş olması üçün hər zaman olduğu kimi, bu il də əzmlə çalışdığını bildirdi. Əlbəttə ki, əldə olunan nailiyyətdə təkcə onun deyil, həm də tabeliyində olan şəxsi heyətin payı olduğunu dilə gətirən komandir “hər bir uğurlu işin arxasında peşəkar bir komandanın zəhməti var” deyərək, fikrini əsaslandırdı.

Şəxsi heyətin döyüş və ictimai-siyasi hazırlığına, hərbi intizamına, dəstədə daxili qayda-qanuna riayət edilməsinə, silahların, əmlakların qorunub saxlanılmasına cavabdehlik daşıyan polkovnik-leytenant R.Əliyev gündəlik olaraq öz xidmətini daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının müvafiq əmrlərinin tələblərinə əsaslanan qurduğunu qeyd etdi: “Bizim dəstənin hərbi hissənin digər bölmələrindən fərqi ondadır ki, işğaldan azad olunmuş ərazilərdə ictimai qaydanın təmin olunması, cinayətkarlığın, talançılığın qarşısının alınmasına cəlb olunuruq. Xidmətimizin təşkili və aparılmasının əsas şərtləri doğma torpaqlarımıza icazəsiz daxil olan kənar şəxslərin və yüklərin giriş-çıxışını məhdudlaşdırmaq, qəflətən qarşıya çıxan döyüş tapşırığını yerinə yetirməyə hər zaman hazır olmaqdan ibarətdir.

Hərbi qulluqçuların döyüş hazırlıqlarının yüksəldilməsində dəstə komandirinin müavini-qərargah rəisi mayor Elvin Güləhmədovun böyük zəhməti var. Onun şəxsi heyətlə mütəmadi olaraq keçirdiyi məşğələlərin, təlimlərin nəticəsidir ki, xüsusi vasitələrin tətbiqi dəstəsi uğurlu xidmətinə görə fərqlənir və hərbi hissə komandiri tərəfindən yüksək qiymətləndirilir”.

Tərtib olunmuş məşğələ cədvəlinə əsasən, hərbi qulluqçularla mütəmadi olaraq məşğələlər keçirilir. Bu məşğələlərdə ictimai-siyasi hazırlıq, atəş hazırlığı, fiziki hazırlıq, Daxili Qoşunların taktiki hazırlığı, hərbi topoqrafiya və ixtisas hazırlığı fənləri tədris olunur. Hərbi qulluqçuların fiziki hazırlıqları xüsusi əhəmiyyət kəsb etdiyi üçün fiziki hazırlıq məşğələsinə daha çox diqqət yetirilir. Yekunda müvafiq normativlər üzrə onlardan məqbullar qəbul edilir.

İctimai-siyasi hazırlıq məşğələsi zamanı şəxsi heyətə ölkədə və dünyada baş verən hadisələr haqqında məlumat verilir.

Məşğələlərin əhəmiyyətindən söz açan mayor E.Güləhmədov, həmçinin ictimai-siyasi hazırlıq məşğələsində mövzudan asılı olmayaraq hərbi qulluqçulara Daxili Qoşunların keçdiyi şərəfli xidmət və döyüş yolu, ən əsası isə 44 günlük Vətən müharibəsi, eləcə də lokal xarakterli antiterror tədbirləri zamanı hərbçilərimizin qəhrəmanlıq salnaməsi barədə məlumat verildiyini xüsusi olaraq vurğuladı. Bildirdi ki, mövzuların şəxsi heyət tərəfindən mənimsənilməsi nəzarətdə saxlanılır, hərbi qulluqçular sual-cavab olunaraq qiymətləndirilirlər.

Şəxsi heyətin bilik və bacarığının artırılması, bölükdə yoldaşlıq münasibətlərinin qorunub saxlanılmasında və mənəvi-psixoloji durumun yüksəldilməsində xüsusi vasitələrin tətbiqi dəstəsinin komandirinin tərbiyə işləri üzrə müavini mayor Sənan Kərimov əlindən gələni əsirgəmir.

İcraçılığında fərqlənən xüsusi vasitələrin tətbiqi dəstəsinin post-patrul xidməti bölməsinin komandiri mayor Yaqub Abbasov üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir, bölmənin ümumi hazırlığında, təlimlərin lazımi səviyyədə keçirilməsində və yüksək nəticələr əldə edilməsində əlindən gələni əsirgəmir. Onu intizamlı və bacarıqlı zabit kimi qiymətləndirən mayor E.Güləhmədov hər bir məsələdə yaxın köməkçisi olduğunu dedi.

Verilən tapşırıqların icrasında fərqlənən, intizamlı hərbi qulluqçulardan gizirlər Cəfər Şəfiyev, Məhəmməd Almədətov, baş çavuş Emin Mahmudov, kiçik çavuş Nurid Qədirov və baş əsgər Şəmsəddin Gözəlovun adlarını çəkən zabit onların hər birinə fədakar xidmətlərində nailiyyətlər arzuladı.

**kapitan Nigar Ağayeva**

# ÖZÜNƏ QARŞI TƏLƏBKAR, ÇALIŞQAN VƏ MƏSULİYYƏTLİ MANQA KOMANDİRİ

Daxili Qoşunların Xidməti itlərin yetişdirmə məntəqəsinin nümunəvi hərbi qulluqçularından biri gizir Nurlan Bayramovdur. O, 1994-cü ilin oktyabr ayının 28-də Ağstafa şəhərində anadan olub. Orta təhsilini Ağstafa şəhər 1 saylı tam orta məktəbdə alıb. 2011-ci ildə Bakı Texniki Kollecinə qəbul olunub. 2015-ci ilə kimi kollecdə nəqliyyatda daşınmaların təşkili ixtisası üzrə təhsilini davam etdirib.

Nurlan həmin ilin iyul ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb və 2017-ci ilin yanvar ayınadək Daxili Qoşunların 67987 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2017-ci ildən isə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirir. 2019-cu ilə kimi 67987 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsində xidmət edib.



Gizir N.Bayramov 2019-cu ildən Xidməti itlərin yetişdirmə məntəqəsinin manqa komandiri-baş heyvan təlimçisidir. Manqaya təhkim olunmuş xidməti itlərin istifadəsini, onların qorunub saxlanılma qaydalarını bilir, tabeliyində olan heyvan təlimçilərini bu istiqamətdə maarifləndirir, xidməti itlərin hər hansı xəstəlikləri olarsa, dərhal məntəqə rəisinə məlumat verir, həmçinin təlim məşğələlərinin keçirilməsində şəxsən iştirak edir.

Daxili Qoşunların Xidməti itlərin yetişdirmə məntəqəsinin rəisi-müəllim mayor Pərviz Əliyev gizir N.Bayramovu nümunəvi hərbi qulluqçu kimi xarakterizə edərək, onun çalışqanlığı, məsuliyyəti, nizam-intizamı və şəxsi keyfiyyətləri ilə yoldaşlarına nümunə olduğunu söylədi.

Qeyd edək ki, gizir N.Bayramov hər zaman nəzəri biliklərini və praktik təcrübəsini artırmağa səy göstərir. Bu məqsədlə müxtəlif kurslarda iştirak edərək ixtisası üzrə təkmilləşir. Belə ki, o, 2025-ci ilin fevral ayında Türkiyə Respublikasının Nevşehir şəhərindəki Jandarm at və it təlim mərkəzində keçirilən təkmilləşmə kursunu müvəffəqiyyətlə başa vurub.

**kapitan Xədicə Hacızadə**

# GƏNCƏ ŞƏHƏRİNDƏ YAŞAYAN ŞƏHİD AİLƏSİNƏ BAŞ ÇƏKİLİB



Bu gün cəmiyyətdə şəhid hərbi qulluqçuların xatirələri ehtiramla anılır, onların ailə üzvlərinə dərin rəğbət və hörmət nümayiş etdirilir. Şəhidlərin həyatı və şücaəti, mərdlik, qəhrəmanlıq nümunələri ilə zəngin olan xidməti-döyüş fəaliyyəti gənclərə örnək göstərilir. Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların komandanlığı tərəfindən də şəhid ailələri ilə bağlı məsələlər daim diqqət mərkəzində saxlanılır.

Məlumdur ki, 2023-cü ilin sentyabr ayının 19-dan 20-dək Qarabağ bölgəsində keçirilmiş antiterror tədbirləri nəticəsində ölkəmizin suverenliyi tam bərqərar edilib, erməni separatizminə son qoyulub. Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti Vətən müharibəsində olduğu kimi, bu döyüşlərdə də qəhrəmancasına iştirak edib, 12 nəfər hərbi qulluqçumuz döyüş tapşırıqlarını yerinə yetirərkən şəhidlik zirvəsinə ucalıb. Belə hərbi qulluqçularımızdan biri də gizir Vaqif Rəcəbovdur.

17072 saylı hərbi hissədə xidməti ezamiyyətdə olarkən hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin post-patrul xidməti bölməsi komandirinin tərbiyə işləri üzrə müavini kapitan Pərvin Əliyevin rəhbərliyi ilə bir qrup hərbi qulluqçu gizir V.Rəcəbovun Gəncə şəhərində yaşayan ailəsinə baş çəkib.

Qeyd edək ki, Vaqif 1982-ci il fevralın 23-də Naxçıvan şəhərində doğulub. İstiqanlı, təmkinli, zəhmətkeş, xeyirxah, özünə qarşı tələbkar gənc kimi formalaşıb. İdmana həvəslə yanaşıb, kiqboksinq növü ilə məşğul olub. Orta təhsilini tamamladıqdan sonra 2000-ci ilin aprel ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müdafiə Nazirliyinin Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi hissələrindən birində xidmət keçib. Hərbi xidmət borcunu vicdanla yerinə yetirərək 2001-ci ilin oktyabr ayında ordu sıralarından ehtiyata buraxılıb.

2009-cu ilin noyabr ayında Vaqif öz arzusu ilə Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. 2013-cü ilin aprel ayında 17072 saylı hərbi hissəyə keçirilərək müxtəlif vəzifələrdə xidmətini şərəflə davam etdirib. Ona göstərilən etimadı hər zaman doğruldub, dəfələrlə mükafatlandırılıb.

Vətən müharibəsi dövründə Gəncə şəhərində komendant postlarında məsuliyyət və sayıqlıq göstərərək xidmət aparıb. Verilən tapşırıqları peşəkarlıqla yerinə yetirib.

Sentyabr ayının 19-dan 20-nə keçən gecə polkovnik-leytenant Rəşad Hüseynovun komandiri olduğu xüsusi vasitələrin tətbiqi dəstəsinin şəxsi heyətinin tərkibində antiterror tədbirlərinə qatılan Vaqif bir qrup hərbi qulluqçu ilə birlikdə Ağdərə rayonunun Vəngli kəndinə bir neçə kilometr məsafə qaldıqda düşmən pusqusuna düşüb. Yolun kənarlarından müxtəlif çaplı silahlarla qəfil atəşə məruz qalmalarına baxmayaraq, döyüşçülərimiz erməni terrorçularına tutarlı cavab zərbəsi endiriblər. Vaqif son nəfəsinədək cəsurluqla vuruşub, ona yaxın cinahda işğalçıların arxasına sızmağa cəhd göstərib, lakin əvvəlcə ayağından, ardınca başından ağır yaralanaraq şəhid olub.



Bu gün Vaqifin həm silahdaşları, həm də ailə üzvləri onu böyük sevgi və ehtiramla yada salırlar. Həyat yoldaşı Elnurə xanımla 2013-cü ildə tanış olub, ailə həyatı qurublar. Elnurə xanım məlumat verdi ki, Vaqif olduqca mehriban, qayğıkeş, diqqətcil ailə başçısı və övladlarını ürəkdən sevən ata idi. Sonuncu dəfə onunla 2023-cü il sentyabrın 18-də görüşüb, Vaqif evə gələrək ailəsi, əzizləri ilə sağollaşıb, özlərindən muğayat olmağı tapşırıb.

Elnurə xanım üçün Vaqif haqqında danışmaq nə qədər çətin olsa da, bir o qədər də qürurvericidir, çünki şəhidlik məqamına ucalmaq hər kəsə nəsib olmur: "Vaqif Vətənini ürəkdən sevərək, peşəsinə can yandıraraq yaşadı, torpaqlarımızın yağı tapdağında qalmaması üçün həyatını fəda etdi".

Kapitan P.Əliyev və döyüşçü yoldaşları Vaqifin müsbət şəxsi keyfiyyətlərə, peşəkar hazırlığa malik, təcrübəli, intizamı ilə seçilən, vətənpərvər, döyüş ruhlu hərbi qulluqçu olduğunu diqqətə çatdırdılar. Antiterror tədbirlərində onun mərdliklə iştirak etdiyini, hərbi anda sadiq qaldığını vurğuladılar.

Hərbi qulluqçumuz 21 sentyabr 2023-cü ildə Naxçıvan şəhərinin qəbiristanlığındakı şəhidlər məzarlığında torpağa tapşırılıb.

Azərbaycan Respublikası Prezidentinin 7 noyabr 2023-cü il tarixli müvafiq sərəncamları ilə gizir Vaqif Rəcəbov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.

Esmira Günəşin "Antiterror şəhidləri - 2023" kitabında şəhid haqqında məlumatlar yer alıb.

Vaqifin Aytən, Nurtən və Nuray adlı övladları yadigar qalıb. Onlar qəhrəman atalarının xatirəsini hər zaman yaşadacaqlar.

**kapitan Xədicə Hacızadə**

# HEYDƏR ƏLİYEV MƏRKƏZİ VƏ TARİX-DİYARŞÜNASLIQ MUZEYİNƏ EKSKURSİYA TƏŞKİL OLUNUB

Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının "DİN-in Daxili Qoşunlarında tərbiyə işinin təşkili haqqında" müvafiq direktivinin tələblərinə əsasən, qoşunların hissə və bölmələrində müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının asudə vaxtının səmərəli təşkilinə xüsusi diqqət yetirilir.

16077 saylı hərbi hissədə xidməti ezamiyyətdə olarkən bunun bir daha şahidi oldum. Hərbi hissənin komendant bölüyünün xidmətdə fərqlənən nümunəvi, intizamlı əsgərlərinin Bərdə şəhərində olan tarixi, mədəni ərazilərə gəzintilərinin təşkili məhz bu qəbildəndir.





Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik Elxan Babayevin rəhbərliyi ilə şəxsi heyət Bərdə şəhərində yerləşən Heydər Əliyev Mərkəzi və Tarix-Diyarşünaslıq Muzeyində olub. İlk olaraq, hərbi qulluqçuları Heydər Əliyev Mərkəzinin mütəxəssisi qarşılayıb və mərkəz haqqında ətraflı məlumat verib. Bildirib ki, 2004-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə təməlqoyma mərasimi keçirilib və 2006-cı il martın 1-də mərkəz fəaliyyətə başlayıb. Mərkəzin fəaliyyətinin əsas istiqaməti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinin dərindən öyrənilməsi, geniş təbliğ olunması, gənc nəslə çatdırılmasından ibarətdir. Eyni zamanda Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi dövrdə Bərdə rayonuna və bərdəlilərə göstərdiyi gözəl münasibəti, sevgisi və qayğısı mərkəzi ziyarət edən hər bir kəsin diqqətinə çatdırılır. Mərkəzdə H.Əliyevin həyatını və ictimai-siyasi fəaliyyətini əks etdirən fotostendlər yaradılıb.

Sonra polkovnik E.Babayevin rəhbərliyi ilə hərbi qulluqçular Bərdə Tarix-Diyarşünaslıq Muzeyi ilə tanış olublar. Burada muzeyin direktoru Kəmalə Rəfibəyli hərbi qulluqçuları qarşılayıb və muzeyin ekspozisiyası haqqında maraqlı məqamları danışıb. O bildirib ki, muzey 1982-ci ildən fəaliyyətə başlayıb, 2008-ci ildə əsaslı təmir edilib və 2009-cu ildə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə yenidən istifadəyə verilib. Azərbaycanın ən qədim yaşayış məskənlərindən və ilkin şəhər mədəniyyətinin formalaşdığı məkanlarından olan Bərdə eramızdan əvvəl II minilliklərdən başlamış son orta əsrlərə qədər geniş bir dövrü əhatə edən çoxlu maddi mədəniyyət abidəsi ilə zəngindir. Rayon ərazisində aşkar edilən arxeoloji tapıntılar, qədim əmək alətləri və əşyalar muzeydə qorunub saxlanılır. Hal-hazırda muzeydə 4119 ədəd eksponat mövcuddur.

Qədim tariximizi və zəngin mədəniyyətimizi özündə əks etdirən muzeylərin maarifləndirici rolunu xüsusi olaraq qeyd edən mütəxəssis əlaləxüsus hərbçilərin bu barədə biliklərinin yenilənməsinin vacibliyini də nəzərə çatdırmağı unutmayıb.

Hərbi qulluqçularımız ekskursiyadan zəngin təəssüratlarla qayıdıblar.

**kapitan Şahin Cəfərzadə**

*Qazilərimiz*

# VƏTƏN ADINI UCA TUTAN VƏ DÖYÜŞLƏRİN OD-ALOVUNDAN KEÇƏN OĞUL

Qəhrəman xalqımız öz müstəqil dövləti uğrunda çətin sınaqlardan keçib. Ötən əsrin 90-cı illərinin əvvəllərində Ermənistanın hərbi təcavüzü nəticəsində ərazisinin bir hissəsinin işğala məruz qalması ölkəmiz üçün ağır faciə olub. Ancaq xalqımız bu gerçəkliyi qəbul etməyərək mübarizlik əzmini itirməyib və yağıdan qisas almaq amalı ilə yaşayıb.

Nəyi necə və nə zaman etmək lazım olduğunu yaxşı bilən, həmişə xalqına arxalanan, siyasətin, diplomatiyanın incəliklərinə dərindən bələd olan müdrik dövlət başçımızın "Qarabağ Azərbaycandır!" şüarı bizi müqəddəs missiya naminə birləşdirib və ruhlandırıb.

44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında ordumuz erməni işğalçılarını darmadağın edərək möhtəşəm hərbi zəfər qazanıb.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti döyüş meydanında qalibiyyətin təmin olunmasına öz töhfəsini verib. Hərbi qulluqçularımız canları və qanları bahasına torpaqlarımızın işğaldan azad olunmasında iştirak ediblər.

Ehtiyatda olan baş çavuş Xəlilov Həsən Sabir oğlu Daxili Qoşunların sabiq hərbi qulluqçusu və Vətən müharibəsi qazisidir. Qazilik məqamı onun həyat yolunun ən layiqli səhifəsidir.

O, 1990-cı il mayın 21-də Naxçıvan şəhərində doğulub. Sabir Xəlilov və Həmayə Məmmədovanın iki oğul övladından biri, habelə yaşca kiçiyidir. Rövşən adlı qardaşı var. Atası S.Xəlilov 2001-ci ildə xəstəlik səbəbindən dünyasını dəyişib. Həmayə xanım hər iki övladının boya-başa çatması, tərbiyəsi və təhsili, həyat qayğıları qarşısında büdrəməməsi üçün çox zəhmət çəkib.

Həsən Naxçıvan şəhərindəki Cəmşid Naxçıvanski adına 11 saylı tam orta məktəbin məzunudur. Orta məktəbdə oxuyarkən çağırışaqədərki hazırlıq və fiziki tərbiyə fənləri onu daha çox maraqlandırıb. Yeniyetmə vaxtından hərbçi peşəsinə rəğbət bəsləyib.

Uşaq yaşından idmana qəlbən bağlanan Həsən sərbəst güləş və əlbəyaxa döyüş növləri ilə uzun illər məşğul olaraq fiziki gücü, habelə məharəti ilə seçilib, müxtəlif yarışlara qatılaraq uğurlu nəticələr nümayiş etdirib. Stend atıcılığı idman növünə də maraq göstərib.

O, Rusiya Federasiyasının Dağıstan Muxtar Respublikasının paytaxtı Mahaçqala şəhərində yerləşən olimpiya idman liseyində təhsil alıb.

2008-ci ilin oktyabr ayında Həsən müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müdafiə Nazirliyinin Naxçıvanda yerləşən "N" saylı hərbi hissəsində hərbi and içib. Kəşfiyyat bölməsində xidmət keçərək hərbi qulluqçu kimi Vətən qarşısında borcunu layiqincə yerinə yetirib. 2010-cu ilin aprel ayında ordu sıralarından ehtiyata buraxılıb.

2011-ci ilin iyul ayında Həsən öz arzusu ilə DİN-in Daxili Qoşunlarının sıralarına müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. 16077 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin atəş təminatı qrupunun heyət nəfəri, snayperi, xüsusi həmlə qrupunun yarımqrup komandiri, 99713 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin mühafizə yarımqrupunun mühafizəçisi vəzifələrində xidmət edib. Təyin olunduğu vəzifələrdə qarşıya qoyulan tapşırıqları vicdanla yerinə yetirərək komandanlığın etimadını doğruldub. Nümunəvi xidmətinə görə komandirləri tərəfindən dəfələrlə mükafatlandırılıb. Silahdaşlarının hörmətini qazanıb, onlardan heç vaxt köməyini əsirgəməyib. Döyüş və mənəvi-psixoloji hazırlığında fərqlənən hərbi qulluqçu kimi üzləşdiyi bütün çətinliklərin öhdəsindən bacarıqla gəlib. Dəstədə keçirilən təlim və məşğələlərdə peşə hazırlığını davamlı şəkildə təkmilləşdirib. Təhkim edilən silahlardan sərrast atəş açıb, dəstənin taktiki fəaliyyət xüsusiyyətlərinə aid bilikləri dolğun mənimsəyib. Silahsız özünümüdafiə və əlbəyaxa döyüş üzrə təşkil olunan kursu bitirib.



2015-ci ilin aprel ayının 2-dən 4-dək sərbəst güləş üzrə keçirilən şəxsi birincilik yarışında 61 kq çəki dərəcəsində I yeri tutduğuna görə DİN-in fəxri fərmanına layiq görülüb.

Xüsusi təyinatlı dəstənin tərkibində Qəbələ, İsmayıllı, Füzuli rayonları, eləcə də Mingəçevir şəhərinin ərazilərində ictimai asayişin və təhlükəsizliyin qorunması məqsədilə xidmətə cəlb olunub, verilən tapşırıqların icrasında heç bir nöqsana yol verməyib.

Koronavirus pandemiyası ilə əlaqədar karantin rejiminin təmin olunması üzrə xidmətə çıxaraq ayıq-sayıqlıq göstərib.

2020-ci il sentyabrın 27-də işğalçı erməni ordusunun təmas xəttində hərbçilərimizi və yaxınlıqda yerləşən yaşayış məntəqələrimizi şiddətli atəşə tutmasına cavab olaraq Silahlı Qüvvələrimizin əks-hücum əməliyyatı ilə başlayan Vətən müharibəsi 44 gün davam edib. Daxili Qoşunların hərbi qulluqçuları Müdafiə Nazirliyinin tabeliyindəki Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyəti ilə birlikdə müharibənin ilk günündən ön cəbhənin müxtəlif istiqamətlərində düşmənə qarşı qətiyyətlə vuruşublar. 99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin hərbi qulluqçuları da döyüş əməliyyatlarına qatılıblar. Müharibənin əvvəlində Həsən Murovdağ silsiləsinin bəzi yüksəklikləri istiqamətində vuruşaraq, işğalçılara məxsus mühüm postlardan birinin ələ keçirilməsi üzrə hücumda kəllə-beyin travması alıb. Gəncədə yerləşən hərbi qospitala təxliyyə edilərək bir neçə gün orada müalicə olunub. Ancaq o, hərbi qospitalda uzun müddət qalmağa razılaşmayıb, ön cəbhəyə, döyüş yolunu davam etdirməyə can atıb. Beləliklə, digər istiqamətdə döyüşən silahdaşlarının sıralarına qayıdıb. Füzuli, Cəbrayıl və Xocavənd rayonlarının ərazilərində odalovlu səngərlərdən keçərək avtomat silahı ilə işğalçılara qan uddurub. Hərbçilərimizin aramsız həmlələri nəticəsində təcavüzkar ordunun bölmələri öz müdafiə mövqelərini əldə saxlaya bilməyiblər və itki verərək geri çəkiliblər. Azad edilən yurdlarımıza qədəm basması Həsənin qəlbində ruh yüksəkliyi yaradıb. Düşmən tapdağından qurtarılan hər bir yaşayış məntəqəsi və yüksəklikdə üçrəngli bayrağımızın ucaldılması qələbəyə inamı daha da gücləndirib. Ön cəbhədə döyüşçü qardaşlığı amili müharibənin əzab-əziyyətlərinə dözməyə, bütün çətinliklərə sinə gərməyə mənəvi güc verib.

99713 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi əməliyyat qrupunun yarımqrup komandiri baş çavuş Dəyanət İsayev Həsənlə 16077 saylı hərbi hissədə birgə xidmət edib və onun döyüşçü yoldaşı olub. Dəyanət söylədi ki, Həsən hərbi anda sadiq, vətənpərvər əqidəli, qorxmaz, yüksək döyüş qabiliyyətli xüsusi təyinatlı kimi müharibə sınağından ləyaqətlə keçib. Silahdaşları ona güvənib, onları qorumaq üçün heç bir təhlükədən çəkinməyib.

Oktyabrın 29-da Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsi istiqamətində döyüş zamanı Həsən ikinci dəfə kəllə-beyin travması və sol dizindən qəlpə yarası alıb. Döyüşçü yoldaşları ona ilk yardım göstərərək arxaya təxliyyə ediblər. Aldığı travma və qəlpə ilə yaralanması onun sağlamlığında müəyyən fəsadlar törədib. Ayrı-ayrı hərbi qospital və mülki xəstəxanalarda müalicə kursları keçib.

2021-ci ilin avqust ayında Həsən səhhəti ilə əlaqədar Daxili Qoşunların sıralarından ehtiyata buraxılıb. Hərbi qulluqçuya ikinci əlillik dərəcəsi verilib, müvafiq pensiya təyin olunub.

Azərbaycan Respublikası Prezidentinin 24 iyun 2021-ci il tarixli, Nazirlər Kabinetinin 21 aprel 2022-ci il tarixli müvafiq sərəncamları, daxili işlər nazirinin 27 iyun, 3 noyabr 2022-ci il tarixli əmrləri ilə baş çavuş H.Xəlilov "Hərbi xidmətlərə görə", "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı", "Şücaətə görə" və "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalları ilə təltif edilib.

Dövlət qayğısı göstərilən qaziyə 3 otaqlı mənzil və avtomobil verilib.

Qeyd edim ki, qazinin qardaşı Rövşən də Vətən müharibəsi iştirakçısıdır, hazırda hava limanında işləyir.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətində əlbəyaxa döyüş təlimatçısı kimi fəaliyyət göstərdiyini deyən Həsən onun üçün belə bir şəraitin yaradılmasına, o cümlədən hərtərəfli dəstəyinə görə Muxtar Respublikanın daxili işlər naziri polis general-mayoru Süleyman Neymətova dərin minnətdarlığını bildirdi.

Naibə xanımla ailə qurmuş Həsənin Nailə, Jalə və Məhəmməd adlı övladları var. Doğmaları, bütün tanıyanlar şərəfli xidmət və döyüş yolu keçmiş Həsənlə fəxr edirlər. Qazi xüsusi vurğuladı ki, Müzəffər Ali Baş Komandanın hər bir çağırışını yerinə yetirməyə daim hazırdır və qalib dövlətin vətəndaşı olmaqdan qürur duyur.

**Yalçın Abbasov**

4_Layout 1 27.08.2025 15:56 Page 1



# AVTOMOBİLLƏRİN VƏ ZİREHLİ TEXNİKALARIN SAZ VƏZİYYƏTDƏ OLMASINA FİKİR VERİLİR

16077 saylı hərbi hissənin avtomobil və zirehli texnika xidməti üzərinə düşən vəzifələri müvəffəqiyyətlə yerinə yetirir. Avtomobil və zirehli texnika xidmətinin rəisi mayor Rövşən Kamilov nəqliyyat vasitələrinin saz vəziyyətdə saxlanılması üçün görülən işlərdən danışdı. Bildirdi ki, hər gün sürücü heyəti avtomobillərin və zirehli texnikaların saxlanıldığı parka gəlir. Parkın girişində xidmət rəisi və park növbətçisi tərəfindən şəxsi heyətin sayı yoxlanılır, təhlükəsizlik qaydaları ilə tanışlıqdan sonra verilmiş tapşırıqlara əsasən fəaliyyət başlayır.



Avtomobil xətdə çıxmazdan öncə parkda yerləşən nəzarət-texniki məntəqəsində maşın rəhbərinin, sürücünün sənədlərinin mövcudluğu, eləcə də nəqliyyat vasitələrinin texniki vəziyyəti yoxlanılır, park növbətçisi tərəfindən xətdə çıxılması üçün icazə verilir. Parka qayıtdıqdan sonra təyin olunmuş yerdə avtomobil saxlanılır, maşın rəhbəri tərəfindən nəzarət-texniki məntəqəsi rəisinə təqdim edilir. O, avtomobilin sazlığını yoxlayır, sürücü tərəfindən nəqliyyat vasitəsinə texniki qulluq göstərilir, yuyulur və yanacaq doldurulduqdan sonra parkdakı saxlancda saxlanılır.

Görülən gündəlik işlərdən başqa, nəqliyyat vasitələrinə yay və qış mövsümlərində texniki xidmətlər göstərilir. Bu zaman avtomobillərdə təmir işləri aparılır, xarici görünüşləri qaydaya salınır. İşğaldan azad olunmuş ərazilərimizdə xidmətə cəlb olunan şəxsi heyətin daşınması üçün ayrılan nəqliyyat vasitələrinin istismarı və texniki vəziyyəti gündəlik dəqiqləşdirilir, zərurət yarandıqda təmiri və texniki qulluğun göstərilməsi təmin edilir.

Xidmət rəisi nəqliyyat vasitələri təhkim olunmuş hərbi qulluqçuların nəzəri biliklərinin artırılması məqsədilə mütəmadi olaraq məşğələlərin keçirildiyini söylədi. Məşğələlərdə gündəlik texniki qulluğun keçirilməsi, avtomobillərin və zirehli texnikaların hissə və mexanizmlərinin iş prinsipləri, düzgün istismarı, idarə olunması, şəxsi heyətin və xüsusi yüklərin daşınması zamanı sürücünün vəzifələri, təhlükəsizlik qaydalarına ciddi əməl edilməsi tədris olunur. Mayor R.Kamilov bildirdi ki, yol-nəqliyyat hadisələrinin qarşısının alınması məqsədilə hər ay yerli yol polisi əməkdaşları hərbi hissənin şəxsi heyəti ilə məşğələlər keçirir, onları maraqlandıran sualları cavablandırırlar.

Mayor R.Kamilov vəzifə borclarının icrasına vicdanla yanaşan, hər zaman öz bilik və bacarıqlarını təkmilləşdirən nümunəvi hərbi qulluqçulardan baş gizir Natiq Cəfərovun, baş əsgər Rəşid Yusubovun, əsgərlər Sübhan Abbasovun və Mirzahir Kazımovun adlarını qeyd etdi.

**kapitan Şahin Cəfərzadə**

# KEYFİYYƏTLİ QİDALANMA ƏSAS AMİLLƏRDƏN BİRİDİR

Daxili Qoşunlar komandanlığının əsas diqqət yetirdiyi sahələrdən biri də şəxsi heyətin keyfiyyətli, kalorili yeməklərlə qidalanmasıdır. Çünki hərbi qulluqçuların sağlamlıqlarının qorunması və səhhətlərinin möhkəmləndirilməsi digər amillərlə yanaşı, keyfiyyətli qidalanmadan da asılıdır.



16073 saylı hərbi hissənin maddi-texniki təminat xidmətlərinin ərzaq xidmətinin rəisi mayor Cavad Abdullayev şəxsi heyətin qidalanmasının Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Silahlı Qüvvələrdə ərzaq normalarının bölünməsi Qaydaları"na, daxili işlər nazirinin müvafiq əmri ilə təsdiq edilmiş "Daxili Qoşunlarda ərzaq xidmətinin təşkili haqqında Əsasnamə"yə və digər rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edildiyini söylədi. Onun sözlərinə görə, xörəklərin keyfiyyətli hazırlanması Daxili Qoşunların və hərbi hissə komandanlığının qarşıya qoyduğu ən vacib tələblərdəndir. Bu baxımdan hazırlanan xörəklərin keyfiyyətinin yüksək olması, sanitar-gigiyenik qaydalara ciddi riayət edilməsi üçün bütün tədbirlər görülür.

Mayor C.Abdullayev şəxsi heyətin qidalanması və gündəlik qida rasionu barədə də məlumat verdi. Bildirdi ki, hərbi qulluqçuların qidalanmasında əsasən milli təamlara üstünlük verilir. O, şəxsi heyətin qidalanmasının həftəlik bölgü cədvəlinə əsasən aparıldığını qeyd etdi.

Xidmət rəisi görülən işlərdə yeməkxana rəisi baş çavuş Siruz Mirzəliyevin əməyini xüsusi olaraq vurğuladı. Qarşıya qoyulan tapşırıqların icrasına, qidaların tələb olunan keyfiyyətdə hazırlanmasına, gigiyena qaydalarına ciddi əməl olunmasına şəxsən nəzarət etdiyini sözlərinə əlavə etdi.

Həmçinin qidaların tələb olunan səviyyədə keyfiyyətlə hazırlanmasında kurs keçmiş ixtisaslı əsgər aşpazlarla yanaşı, mülki işçi - aşpazlardan Fidan Qonaqova, Bəsti Məmmədova və Nazilə Yaqubovanın fəaliyyətini müsbət xarakterizə etdi.

**kapitan Nigar Ağayeva**

# CAMAŞIRXANA MÜASİR TEXNİKİ AVADANLIQLARLA TƏCHİZ OLUNUB

17072 saylı hərbi hissənin camaşırxanası bütün növ əmlakların yuyulması, qurudulması, o cümlədən çeşidlənməsi üçün lazım olan müasir texniki avadanlıqlarla təchiz olunub.

Qeyd etmək lazımdır ki, qarşıya qoyulan tapşırıqların uğurla yerinə yetirilməsində işçilərin əməyi böyükdür. Şəxsi heyətin həftə ərzində istifadə etdiyi əmlaklarının yuyulması onlar tərəfindən həyata keçirilir. Hərbi hissənin təminat bölüyünün təminat taqımının hamam-camaşırxana kombinatının rəisi baş çavuş Seymur Bayramov tabeliyində olan işçi xanımların fəaliyyətindən söz açdı, onların işgüzar və mənəvi keyfiyyətlərini sadaladı. O bildirdi ki, camaşırxana işçiləri Gilanə Qəhrəmanova və Amirə Qasımova öz işlərini məsuliyyətlə görür, hər bir əsgərə ana qayğısı ilə yanaşırlar.



Hər həftə hamam tədbirlərindən sonra cümə və şənbə günləri əsgərlərin çirkli əmlakları yuyulur. Hər bir əmlak qurudulub ütüləndikdən sonra çeşidlənərək aidiyyəti üzrə bölmələrə təhvil verilir. Əmlaklar istifadə təyinatına və rənginə görə ayrıca paltaryuyan qurğularda yuyulur ki, bu da sanitar-gigiyenik qaydaların gözlənilməsi deməkdir. Gigiyenik qaydalara ciddi əməl olunması həm də hissə komandanlığının nəzarətdə saxladığı və işçilərin qarşısında qoyduğu ən mühüm tələbdir. Yeri gəlmişkən qeyd edək ki, hər il yay mövsümü ilə əlaqədar olaraq, hərbi hissə komandirinin əmrinə əsasən, əsgərlərin hamam tədbirləri həftədə iki, çox isti havalarda isə üç dəfə həyata keçirilir.

İşçilər üzərilərinə düşən vəzifələri, habelə verilmiş tapşırıqları müvafiq tələblər əsasında yerinə yetirirlər.

**kapitan Xədicə Hacızadə**

*Həkim məsləhəti*

# YAŞLILIQDA XRONİKİ XƏSTƏLİKLƏRİN QARŞISININ ALINMASINDA PƏHRİZİN ROLU ƏHƏMİYYƏTLİDİR

İsveçin Karolinska İnstitutunda aparılan uzunmüddətli tədqiqat 15 il ərzində 2400-dən çox yaşlı insanı izləyərək sağlam qidalanmanın xroniki xəstəliklərin inkişafını yavaşlatdığını göstərib.



AZƏRTAC Böyük Britaniyanın "The İndependent" nəşrinə istinadla xəbər verir ki, araşdırmada 70 yaşlarında aktiv və müstəqil yaşayan iki fərdin fərqli sağlamlıq nəticələri müqayisə olunub. Nəticələr göstərib ki, pəhrizdəki fərqlər onlarda sonrakı illərdə iki və ya üç xroniki xəstəliyin (ürək xəstəliyi, şəkərli diabet və depressiya) inkişaf edib-etməməsində əsas amil olub. Xüsusilə, iltihabı artıran işlənmiş ət, zərif taxıl məhsulları və şəkərli içkilər xəstəliklərin daha sürətlə artmasına səbəb olub. Əksinə, Mind pəhrizi, Aralıq dənizi pəhrizi və Alternativ Sağlam Qidalanma İndeksinə uyğun qidalananlarda xroniki xəstəliklərin inkişafı daha ləng gedib.

Araşdırmada ürək-damar və psixiatrik xəstəliklərdə pəhriz təsiri xüsusilə diqqətəlayiq olub. Sağlam qidalanan insanlarda ürək çatışmazlığı, insult, depressiya və demans kimi xəstəliklərin riski azalıb. Bundan əlavə, sağlam qidalanma iltihabı azaldır, immuniteti gücləndirir, əzələ və idrak sağlamlığını dəstəkləyir. Bu amillər yaşlanma prosesinin yavaşlamasında mühüm rol oynayır.

Tədqiqat nəticələri göstərir ki, yaşlılarda tərəvəz, meyvə, paxlalılar, qoz-fındıq, tam taxıl məhsulları və sağlam yağların (məsələn, kolza yağı, balıq) çox olması, qırmızı və işlənmiş ətin, şəkərli içkilərin və bərk yağların isə azaldılması tövsiyə edilir. Pəhriz fiziki fəaliyyət, sosial əlaqələr və səhiyyə xidmətləri ilə birlikdə sağlam yaşlanmanı dəstəkləyən əsas amillərdəndir. Tədqiqat pəhrizdə kiçik dəyişikliklərin belə yaşdan asılı olmayaraq insanların həyat keyfiyyətinə əhəmiyyətli müsbət təsir göstərə biləcəyini sübut edir.

*NÜMUNƏVİ XİDMƏT*

# KOMENDANT BÖLÜYÜNÜN SAYIQ, İNTİZAMLI ƏSGƏRİ



Baş əsgər Rifah Hüseynov 16077 saylı hərbi hissənin komendant bölüyünün intizamı, layiqli xidmətilə seçilən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularındandır. Bölük komandiri baş leytenant Rəşad Əliyev tərəfindən müsbət xarakterizə olunan hərbi qulluqçu qısa zamanda yoldaşlarına nümunə olmağı bacarıb.

Baş əsgər R.Hüseynov 2006-cı il avqustun 2-də Şabran şəhərində anadan olub. 2013-2024-cü illərdə Şabran şəhər Samir Zülfüqarov adına 3 nömrəli tam orta məktəbdə təhsil alıb. 2016-2021-ci illərdə şəhərdə yerləşən Uşaq Yaradıcılıq Mərkəzində musiqi təhsili alıb.

2024-cü ilin oktyabr ayında 25031 saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətə başlayıb, noyabr ayında xidmətini davam etdirmək üçün 16077 saylı hərbi hissəyə göndərilib. Atıcı vəzifəsindədir. Özünə qarşı olduqca tələbkar olan Rifah xidmətə ciddi münasibətilə seçilir. Hərbi xidmətə həvəsi, əzmkarlığı ilə yanaşı, lazım olduqda əsgər yoldaşlarına da köməklik göstərməsi onun müsbət xüsusiyyətlərindəndir.

Daxili Qoşunlarda xidmətilə fəxr edən baş əsgər R.Hüseynov hər bir gəncin Vətənə olan borcunu layiqincə qaytarmasının, komandirlər tərəfindən qarşıya qoyulan tapşırıqların dəqiqliklə yerinə yetirilməsinin vacibliyini vurğuladı.

**16077 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# TAPŞIRIQLARIN İCRASINA MƏSULİYYƏTLƏ YANAŞAN RADİOTELEFONÇU

17072 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçularından biri əsgər Nicat Ramazanovdur. O, 2006-cı ilin noyabr ayının 8-də Şabranda anadan olub. Orta təhsilini doğulub boya-başa çatdığı şəhərdə yerləşən 2 saylı tam orta məktəbdə alıb. 2024-cü ildə təhsilini tamamlayıb. 2025-ci ilin yanvar ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 25031 saylı hərbi hissədə hərbi xidmətə başlayıb. Fevral ayından may ayınadək 25032 saylı hərbi hissədə təşkil edilmiş rabitəçi kursunu keçib. Hazırda təminat bölüyünün rabitə taqımının radiotelefonçusu vəzifəsində xidmətini davam etdirir.



Əsgər N.Ramazanov bacarıqlıdır, hər zaman öz üzərində işləyir, biliklərini artırmağa səy göstərir. Verilən tapşırıqların icrasına məsuliyyətlə yanaşır. Hərbi nizamnamələrin tələblərini bilir və gündəlik xidmətini bu tələblərə uyğun təşkil edir.

Radiotelefonçu bildirdi ki, rabitə növbətçisi kimi xidmətə cəlb olunur və gündəlik Daxili Qoşunların Baş İdarəsi, eləcə də hərbi hissənin bölmələri ilə rabitə əlaqəsi yoxlanılır, hər hansı nasazlıq baş verərsə, dərhal aradan qaldırılması təmin edilir.

Hərbi hissənin qərargahının rabitə və AİS xidmətinin rəisi mayor Müzabil Mehtiyev də əsgər N.Ramazanovu müsbət xarakterizə edərək, onun vəzifə borclarını keyfiyyətlə icra etdiyini, nizam-intizamı və yaxşı cəhətləri ilə yoldaşlarına nümunə olduğunu söylədi. Hərbi qulluqçumuza xidmətində uğurlar arzulayırıq.

**17072 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### Rusiyada yeni RPL-7 yüngül pulemyotu qoşun sınaqlarına göndərilir



Rusiyanın "Kalaşnikov" konserni yeni 7.62 mm-lik RPL-7 yüngül pulemyotunu qoşun sınaqları üçün göndərir. "Poliqon" "Kalaşnikov"a istinadən xəbər verir ki, konsernin konstruktorları bu silahı sifarişçinin tələblərinə uyğun olaraq qısa müddətdə hazırlayıb.

RPL-7 5.45 mm-lik RPL-20 yüngül pulemyotunun konstruksiyası əsasında yaradılıb və hücum bölmələri üçün nəzərdə tutulub.

### "Javelin" tank əleyhinə raket komplekslərinin Avstraliyaya satışı təsdiqlənib

ABŞ Dövlət Departamenti 97.3 milyon dollar dəyərindəki "Javelin" tank əleyhinə raket komplekslərinin Avstraliyaya satışını təsdiq edib. "Poliqon" xəbər verir ki, bu barədə ABŞ-ın Müdafiə Təhlükəsizliyi Əməkdaşlıq Agentliyi (DSCA) məlumat yayıb.



Bildirilib ki, sifarişə 161 ədəd "Javelin" kompleksinin və digər lazımi avadanlıqların satın alınması, eləcə də onlara təmir, texniki xidmət və logistika dəstəyinin göstərilməsi daxildir.

## Allah rəhmət eləsin

Daxili Qoşunların Veteranlar şurası **ehtiyatda olan polkovnik-leytenant Rasim İbrahimovun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Veteranlar şurası **istefada olan baş gizir Nizami Nuriyevin** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000